Özbəkistanın Səmərqənd şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Baş Konfransının 43-cü sessiyasında Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edən elm və təhsil nazirinin müavini Həsən Həsənli Anqola Respublikasının təhsil naziri Luisa Maria Alves Grilo ilə görüşüb.

Sözügedən görüşdə tərəflər ümumi təhsil sahəsində əməkdaşlığın qurulması, o cümlədən STEAM çərçivəsində mümkün birgə təşəbbüslər barədə fikir mübadiləsi aparıblar.